♦ *10 aprel İnşaatçılar Günüdür*

***Ölkəmizdə sahibkarlığın stimullaşdırılması, özəl bölməyə göstərilən diqqət və qayğının artırılması dövlətin iqtisadi strategiyasının prioritet istiqamətlərindəndir. Son dövrlərdə bu sahədə qəbul olunan hüquqi-normativ aktlar mühüm əhəmiyyət kəsb edir. Əslində bu, təkcə sahibkarlara yox, ölkəmizdə təbii istehsal sahələrinin genişləndirilməsinə, yeni iş yerlərininin yaradılmasına, qeyri-neft sektorunun inkişafına, ixrac qabiliyyətli məhsulların daha da artırılmasına göstərilən diqqət və qayğıdır.***

# Azərbaycan inşaatçıları dövlət qayğısına əməli işlə cavab verirlər





Son illər ölkəmizdə özəl bölmənin sürətli inkişafını təmin etmək məqsədilə qəbul olunmuş mühüm qərarlar, bir sıra dövlət proqramları inşaat sektorunda da böyük canlanmaya səbəb olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tikinti sahəsində çalışan iş adamlarına qarşı əsassız tələblərin yığışdırılması, eyni zamanda, inşaat sektorunun tam sərbəst şəkildə inkişaf etməsi istiqamətində verdiyi tapşırıq və qərarlar yerli sahibkarlarda böyük ruh yüksəkliyi yaradıb.

Məlum olduğu kimi, inşaat sektorunun inkişafı bütövlükdə ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən mühüm amillərdən biridir. Məhz buna görədir ki, xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu və memarı Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə tikinti-quruculuq işlərinə xüsusi qayğı və həssaslıqla yanaşmış, bir sıra nəhəng obyektlərin inşasına şəxsən nəzarət etmişdir. Ulu öndərin Azərbaycanda birinci dəfə hakimiyyətdə olduğu illərdə respublikamızda tikinti sektorunun inkişafı xeyli sürətlənmiş, həmin dövrdə Bakıda, digər şəhər və rayonlarımızda bir sıra nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdir. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə bu prosesə güclü təkan verilmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995-ci ildən ötən dövrdə inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi xeyli artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir. Həmin təşkilatlar ölkəmizin sosial-iqtisadi inkişafında, investisiya layihələrinin reallaşmasında, məşğulluq problemlərinin həllində önəmli rol oynamağa başlamışlar. Ötən illərdə qabaqcıl dünya təcrübəsi və inşaat texnologiyalarını mənimsəyən tikinti sektorunun səyi ilə ölkəmizə sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirilmişdir.



Azərbaycan inşaatının və memarlığının şanlı ənənələri bu gün də uğurla davam etdirilir. Ulu öndərin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkə ərazisi böyük tikinti-quruculuq meydanına çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr haqlı olaraq nəhəng tikinti və quruculuq illəri kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikamızda həyata keçirilən köklü islahatlar, baş verən iqtisadi sıçrayış tikinti, quruculuq, abadlıq sahəsində də özünü aydın şəkildə göstərir. Belə ki, paytaxt Bakı ilə yanaşı, bölgələrimizin də siması əsaslı şəkildə dəyişib, müxtəlif təyinatlı tikinti obyektlərinin miqyası və əhatə dairəsi genişlənib, yeni-yeni yaşayış binaları, park və xiyabanlar salınaraq əhalinin istifadəsinə verilib.

Son 12 ildə ölkə iqtisadiyyatına investisiya qoyuluşu xeyli artıb. Təkcə 2015-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 15 milyard 957 milyon manat vəsait qoyulub. Kapital qoyuluşunun strukturunda tikinti-quraşdırma işləri daha üstün çəkiyə malik olub. Belə ki, ötən il tikinti-quraşdırma işlərində istifadə edilmiş vəsaitin həcmi ümumi inşaat işləri üçün xərclənmiş məbləğin 73,5 faizi və ya 11 milyard 722,9 milyon manat təşkil edib. İl ərzində məhsul istehsalı obyektlərinin inşasında 9 milyard 880,6 milyon manat, xidmət sahələri üzrə obyektlərin tikintisində isə 5 milyard 47,6 milyon manatlıq vəsaitdən istifadə olunub. Bundan əlavə, ötən il yaşayış evlərinin tikintisinə 1 milyard 29,7 milyon manat vəsait xərclənib ki, bunun da hesabına ölkədə ümumi sahəsi 1 milyon 927,2 min kvadratmetr mənzil inşa edilib. Yeri gəlmişkən, tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 66,1 faizini yeni tikinti, yenidənqurma və genişləndirmə, 15,7 faizini əsaslı təmir, 5,3 faizini cari təmir, 12,9 faizini isə sair tikinti işləri təşkil edib. Ümumi inşaat işlərinin 84,5 faizi qeyri-dövlət tikinti müəssisələri tərəfindən yerinə yetirilib. Əsaslı investisiya qoyuluşu hesabına il ərzində paytaxt Bakıda, eləcə də regionlarda bir sıra vacib infrastruktur obyektləri inşa edilib.

Bununla yanaşı, ötən il bütün maliyyə mənbələri hesabına ölkədə 195 çarpayılıq 2 xəstəxana, növbədə 270 nəfəri qəbul etmək imkanına malik 7 poliklinika ümumi sahəsi 1 milyon 922,3 min kvadratmetr olan yeni yaşayış evləri, 11222 şagird yerlik 53 ümumtəhsil məktəbi, 2182 yerlik 23 məktəbəqədər təhsil müəssisəsi, 280 yerlik 2 klub və s. obyektlər istifadəyə verilib.

Paytaxt Bakıda, eləcə də regionlarda yeni istehsal sahələrinin və sosial infrastrukturun yaradılmasında, qədim və köhnə tikililərin təmir olunmasında, zəruri kommunikasiyaların yenilənməsində Azərbaycan inşaatçılarının müstəsna xidmətləri var. Bu bir faktdır ki, son illər ərzində ölkəmizin hər yerində, hətta ən ucqar kəndlərdə belə, aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi onun simasını gözəlləşdirməklə yanaşı, həm də doğma diyarın müasir inkişaf reallıqlarına çevrilib.



Ölkəmizdə həyata keçirilən yenidənqurma, quruculuq işləri hazırda da uğurla davam etdirilir. Hər ötən gün özünün yenilikləri ilə diqqəti daha çox cəlb edir. Aparılan tikintilərdə Azərbaycan memarlığının zəngin milli ruhu, koloriti və daimi müasirliyi öz əksini tapır. Eyni zamanda, müasirliklə milliliyin vəhdəti, tarixi ənənələrin davam etdirilməsi hazırlanan yeni layihələrdə yaşadılır, həyata keçirilən işlər milli üsluba, xalqımızın zəngin memarlıq ənənələrinə uyğunlaşdırılır. Yeni layihələrdən söhbət düşmüşkən, bu yaxınlarda Azərbaycan Respublikasının Milli Məclisi “Tik, idarə et, təhvil ver”modelinin tətbiqini nəzərdə tutan qanun layihəsini təsdiq edib. “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” qanunun qəbulu olduqca müsbət haldır. Xatırlatmaq istəyirəm ki, dünyada bu model 1979-cu ildən həyata keçirilir. Bu, islahatların həyata keçirilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biridir. Belə ki, bu qanunun mahiyyəti və özəlliyi ondan ibarətdir ki, layihə özəl və ictimai şirkətlər, eləcə də dövlət qurumlarının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

Yeri gəlmişkən, bir məqamı da diqqətə çatdırım ki, uzun illərdir, Azərbaycanda gənclər şəhərciyi, sosial mənzillər və digər layihələrlə bağlı maraqlı təkliflər irəli sürülür. Bu da ondan irəli gəlir ki, hazırda ölkəmizdə mənzilə ehtiyacı olan insanların sayı kifayət qədər çoxdur. Amma təəssüflər olsun ki, mənzil probleminin həllinə mühüm töhfələr verə biləcək bu layihələrin reallaşdırılması üçün investor tapmaq müşkülə çevrilmişdi. Çünki özəl sektorda sözügedən layihələrə maraq yox idi. Hesab edirəm ki, yeni qanunun qəbulu bu sahədə ciddi irəliləyişə səbəb olacaq. Azərbaycanda tikinti sektorunun canlandırılmasına xidmət edən bu qanunun qəbulu, həm də yeni iş yerlərinin açılmasına, ölkəyə əlavə vəsaitin cəlb olunmasına kömək edəcək. Fikrimcə, qanunun həyata keçirilməsini sürətləndirmək məqsədilə dövlət tərəfindən bir sıra güzəştlər tətbiq olunmalıdır. Həmin güzəştlərə isə torpağın ayrılması, müvafiq strukturlardan icazənin alınması və s. daxildir.

Yeri gəlmişkən, yeni qanunun işlək mexanizmə çevrilməsi tikinti sektorunda böyük bir canlanmaya səbəb olacaq ki, bu da ölkədə inşaat materiallarına tələbatı kəskin şəkildə artıracaq. Xatırladaq ki, möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanda inşaat mallarının istehsalının artırılması ilə bağlı tövsiyə və tapşırıqlar verib. Yanvarın 26-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci illiyinə həsr olunmuş konfransda dövlət başçısı son illər ərzində tikinti materiallarının istehsalının artırılması üçün dövlət və özəl sektor tərəfindən böyük investisiyalar qoyulduğunu diqqətə çatdıraraq bu sahədə hələ görüləsi işlərin çox olduğunu qeyd etdi. Möhtərəm Prezident qarşıdakı illərdə inşaat materiallarına olan tələbatın 100 faiz yerli istehsal hesabına təmin edilməsinin, malların maya dəyərində xarici asılılığı minimuma endirməyin vacibliyini bəyan etdi. Azərbaycan Respubliasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, hazırda ölkəmizdə sementə olan tələbatın 92 faizi, bentonitin 60 faizi, kərpicin 99 faizi, beton tikinti bloklarının 100 faizi, alçipanın 95 faizi, metal konstruksiyaların 40 faizi və s. yerli istehsal hesabına ödənilir. Adıçəkilən inşaat mallarının istehsalı üçün müəyyən komponentlərin xaricdən alınması isə maya dəyərində idxaldan asılılığa gətirib çıxardığından dövlət başçısı bunun qarşısını almaq məqsədilə həmin komponenetlərin də ölkəmizdə istehsalına nail olmağı tövsiyə etdi. Bu da öz növbəsində daxili bazarın inşaat mallarına olan tələbatının ödənilməsinə imkan yaratmaqla yanaşı, ölkənin ixrac potensialının da artmasına gətirib çıxaracaq.

Azərbaycanın şanlı quruculuq salnaməsinin yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyev bütün digər sahələrdə olduğu kimi, inşaat sektorunda çalışanların da əməyini hər zaman yüksək qiymətləndirmişdir. Ulu öndərin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev də ölkəmizdə geniş quruculuq işlərinin önündə gedən bu sadə peşə sahiblərinə xüsusi diqqət və qayğı ilə yanaşır, onların əməyini hər an yüksək dəyərləndirir. Elə dövlət başçısının Azərbaycan inşaatçılarının ölkə iqtisadiyyatının inkişafındakı xidmətlərini nəzərə alaraq 2009-cu il dekabr ayının 16-da imzaladığı sərəncamla “İnşaatçılar günü” peşə bayramını təsis etməsi də məhz bu sadə peşə sahiblərinə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Möhtərəm Prezidentimizin inşaat sahəsində çalışanların əməyinə verilən yüksək dəyərin göstəricisi sayılan bu günün təsis olunması və ardıcıl olaraq hər il peşə bayramı kimi qeyd edilməsi təqdirəlayiq haldır. Yeri gəlmişkən, ötən illərdə dövlət başçısı tərəfindən inşaat sahəsində müəyyən xidmətləri olan şəxslər fəxri adlarla, orden və medallarla təltif olunmuşlar.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin inşaatçıların əməyinə verdiyi yüksək qiymət bu şərəfli və çətin peşə sahiblərini ölkəmizin gələcək tərəqqisi naminə yeni-yeni nailiyyətlərə ruhlandırır. Azərbaycanımızın daha da gözəlləşməsi, müasirləşməsi istiqamətində yorulmaq bilmədən çalışan inşaatçılarımız budəfəki peşə bayramlarını da sevinclə, yüksək nailiyyətlərlə qeyd edirlər. Ölkəmizin sosial-iqtisadi inkişafında yaxından iştirak edən inşaatçılar onların əməyinə verilən bu yüksək qiymətə cavab olaraq bundan sonra da əzmlə çalışacaq, yaradıcı əməklərini ölkəmizin daha da müasirləşməsinə sərf edəcəklər.

***Qərib DADAŞOV,***
***Əməkdar mühəndis,***
***iş adamı***